***Bu il Qarabağa payızın gəlişi, sanki, xeyli ləngiyib. Uzaqda, günbatanda Kirsin, Qırxqızın, Murovun zirvələrində gözqamaşdıran qar örpəyini görməsən, deyərsən ki, yazın oğlan çağıdır. Xoş keçən havalar, ətrafın üzəgülən yaşıllığı, çöl-bayırdakı naxır və sürülər ötüb-keçənlərdə bahar əhvalı yaratsa da tarla, plantasiya və bağ-bağçaların hələ yığılıb qurtarmamış məhsulu Qarabağın bar-bərəkətli payızın qoynunda nazlandığından xəbər verirdi...***

# Ağdam: təşəbbüskarlıq artır, problemlər aradan qaldırılır



Qarşıda açılan bu nəhəng mənzərənin mahir bir rəssam tablosu kimi canlandığı Bərdə-Ağdam magistralı əvvəllər 20 kilometr də irəlilədikdən sonra yolçuları Qarabağın baş qapısı sayılan Ağdam şəhərinə çatdırırdı. 25 ildir ki, Təzəkənd deyilən məntəqədən o yana keçmək olmur. Yağının qənim kəsildiyi bu yerlərdə indi asfalt dağılıb, yol ot basmış ətraf yerlərdən seçilmir...

Bir neçə kilometr geri qayıdıb işğaldan sonra rayonun əsas girişinə çevrilmiş Köçərli–Hindarx yoluna üz tuturuq. Bu yaxınlarda istifadəyə verilmiş, qara enli zolaq kimi uzanan rahat yolla cəmi on dəqiqəyə rayonun rəhbər icra və xidmət qrumlarının yerləşdiyi Quzanlı qəsəbəsinə yetişirik.



Təbii olaraq, yol boyu Prezident İlham Əliyevin bölgəyə 3 həftə əvvəlki səfərinin diqqətçəkən məqamlarını yada salırıq. Elə bu yolun iki ay əvvəlki bərbad, çətin keçilən mənzərəsini də xatırlamamaq mümkün deyil. Davamlı qəzaların baş verdiyi, sürücülərin istehza ilə “Bermud üçbucağı” adlandırdığı bu aralıqda, nəhayət, yüksək keyfiyyətli yolun çəkilməsi gözlərimiz önündə Prezident İlham Əliyevin bölgələrdə də paytaxt rahatlığı yaratmaq üçün gerçəkləşdirdiyi davamlı tədbirlərin növbəti təzahürü kimi canlanır.

Dövlət başçısının budəfəki səfəri rayon ərazisində digər yeni yolların istifadəyə verilməsi, bölgədə yol quruculuğunun davam etdirilməsinə onun müstəsna diqqəti ilə əlamətdar olmuşdur. Prezident İlham Əliyev noyabrın 5-də rayonda olarkən əsaslı şəkildə yenidən qurulan Quzanlı–İmamqulubəyli–Orta Qərvənd–Xındırıstan, Əfətli–Hacıturalı–Həsənxanlı avtomobil yolları da istifadəyə verilmişdir. 30,7 kilometrlik bu yollar 36 min əhalinin yaşadığı 19 məntəqədə rahat gediş-gəlişi təmin etmiş, düşmənin atəş məsafəsində yaşayan insanlarda böyük məmnunluq yaratmışdır.

Dövlətimizin başçısı səfər zamanı Tərtər–Hindarx avtomobil yolunun 18–41-ci kilometrlik hissəsi və Ağdam–Hindarx–Ağcabədi avtomobil yolunun 23–7-ci kilometrlik hissəsində görülən yenidənqurma işləri ilə də tanış olmuşdur. Beləliklə, bölgənin avtomobil yollarının əsaslı surətdə yeniləşməsində mühüm addımlar atılmışdır. Respublika əhəmiyyətli Tərtər–Hindarx və Ağdam–Hindarx–Ağcabədi avtomobil yollarının 37 kilometrlik hissəsinin yenidən qurulması ilə yolboyu nəqliyyat əlaqəsi xeyli yaxşılaşacaq.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikintisinə başlanmış və təməlqoyma mərasimində dövlət başçısının da iştirak etdiyi 1800 kvadratmetrlik ümumi sahəsi, 328 nəfərlik zalı, geniş foyesi, qalereyası, qrim və gözləmə otaqları olan Ağdam Muğam Mərkəzinə budəfəki səfər zamanı Prezident İlham Əliyevin və Birinci virse-prezident Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilməsi milli musiqi sənətimizin qorunması və inkişafına növbəti dəyərli töhfə olmuşdur.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovla gündüz saatlarında görüşmək mümkün olmadı. Mahrızlı kəndində keçirdiyi səyyar qəbuldan sonra rayon rəhbəri pambıq yığımı davam edən kəndlərdə olmuş, sonra isə dini vəziyyətin durumu ilə bağlı Bakıdan gəlmiş mütəxəssislərin iştirakı ilə müşavirədə iştirak etmişdi. Onunla axşamdan xeyli keçmiş baş tutan görüşümüz iki saatadək davam etdi. Son vaxtlar rayonda baş vermiş yeniliklərlə artıq tanış olduğumuza görə başçının verdiyi məlumatlar təsəvvürümüzü daha da dolğunlaşdırdı.



**Başçı, hər şeydən əvvəl, Prezident İlham Əliyevin rayona son səfərinin önəmindən söz açaraq bildirdi ki, yeni yolların, Xalça fabriukinin və Muğam evinin açılışında dövlət başçısının öz xanımı ilə iştirakı, keçirilən görüşlər rayonun tarixində yeni, unudulmaz səhifələr oldu. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rayona gəlişi, yeni obyektlərin onların xeyir-duası ilə istifadəyə verilməsi çəbhə xəttində hədsiz məhrumiyyətlərlə üzləşmiş ağdamlılara sonsuz sevinc və ruh yüksəkliyi gətirdi.**

Prezident İlham Əliyev Muğam mərkəzinin açılışında rayon ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı bildirdi ki, son illər Ağdam rayonunun inkişafına böyük diqqət göstərilir. Rayonun infrastrukturunun yenilənməsi, yeni obyektlərin yaradılması istiqamətində böyük işlər görülüb. Həmin gün Ağdam rayonunda yeni yolların, xalça fabrikinin açılışı da oldu. Prezidentin sərəncamları ilə rayonda çəkilən yolların uzunluğu 66 kilometrdir. Artıq ərazidəki yol infrastrukturu, təxminən, 95 faiz təzələnib.

Dövlət başçısının da qeyd etdiyi kimi, əvvəlki illərdə Ağdam rayonunda xəstəxana, doğum evi, uşaq xəstəxanası, Olimpiya İdman Kompleksi tikilib. İndi elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur, qazlaşdırmanın səviyyəsi 98 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə rayonda 30 subartezian quyusu qazılmışdır. Ölkə rəhbərinin növbəti sərəncamları ilə rayonda əlavə 35 subartezian quyusu qazılacaq, yeni məktəb tikiləcək.

Göründüyü kimi, bu səfər dövlət başçısı İlham Əliyevin Ağdama və ağdamlılara xüsusi diqqət və qayğısının daha bir təsdiqi oldu. Biz bu səfəri rayonun sosial-iqtisadi və mədəni inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndiririk. Prezidentin səfəri ərəfəsində buvaxtadək rayonda görülmüş işlərə yekun vurmuşduqsa, onun gəlişindən sonra qarşıda duran vəzifələrimizi bir daha müzakirə etdik. Düşünürük ki, dövlət başçısının belə yüksək himayədarlığı şəraitində daha çox çalışmalıyıq.

Rayonda sosial-iqtisadi inkişafın sürətləndirilməsi sahəsində işlər son aylarda daha əhatəli davam etdirilir. Ötən illərdə dövlətin fəal və davamlı dəstəyi, yerli ehtiyat mənbələrindən də istifadə olunması ilə aparılan tikinti-quruculuq işləri uzun müddət döyüş əməliyyatlarına meydan, düşmənin artilleriya hücumlarına hədəf olmuş yaşayış məntəqələrində kommunikasiyaları saz vəziyyətə gətirməyə, həyat ahəngini bərpa etməyə, dağıntıları aradan qaldırmağa, zəruri ehtiyac duyulan yeni obyektlər yaratmağa yönləndirilmişdir. Nəticədə, ərazisinin üçdə ikisi işğal altında olan, yerli əhalidən əlavə, kənar bölgələrdən minlərlə məcburi köçkünün də sığındığı Ağdam öz əvvəlki imkanlarını və şöhrətini bərpa etmək yoluna çıxarılmışdır.



Etiraf edək ki, bu prosesdə bir çox halda problemi qabaqlamaq deyil, onun arxasınca getmək səciyyəvi olmuşdur. Necə deyərlər, ehtiyac qapını kəsəndə, problem adamlara əziyyət verəndə onun həllinə cəhd göstərilmişdir. Axı bu işlər vaxtında görülsə idi, onun aradan qaldırılması da asan olardı, adamlar da lüzumsuz çətinlik çəkməzdilər. Əgər yol pisdirsə, onun çəkilişini niyə sabaha saxlayasan? Yaşayış məntəqəsində su, elektrik enejisi, qaz verilişi qaydasında deyilsə, niyə bu çətinliklər aradan qaldırılmasın? Prezident İlham Əliyevin inamla gerçəkləşdirdiyi, hərtərəfli inkişafa, əsaslı yeniləşməyə, ehtiyacların dolğun ödənilməsinə, vətəndaş məmnunluğuna yönləndirilmiş sosial-iqtisadi quruculuq strategiyası ölkənin icra sistemindən məhz problem və maneələrin qabaqcadan aşkar edilib-önlənməsini tələb edir.

Günün bu vacib tələbini gerçəkləşdirməyin bir yolu icra və xidmət sahəsində bacarıqlı, təşəbbüskar kadrların olmasıdırsa, digər yön əhali ilə sıx ünsiyyət, onların tələbat və istəklərinin ardıcıl diqqətdə saxlanılmasıdır. Biz bu yolla gedirik. Rayonun bütün qurumlarının qarşısında bu tələb qəti surətdə qoyulmuş, nöqsanları aradan qaldırmaq, işdə ciddi dönüş yaratmaq üçün konkret vaxt verilmişdir. Bilikli və çalışqan mütəxəssisləri məsul vəzifələrə irəli çəkməklə problemlərin arxasında sürünməkdən qurtarıb inkişafın önünə keçmək yolunu seçmişik.



Əhalinin qayğılarını və hansı arzularla yaşadığını öyrənmək üçün qısa müddətdə rayonun əksər yaşayış məntəqələrində səyyar qəbullar keçirmişik. Belə canlı, açıq görüşlərdə qaldırılan məsələlərin bir çoxunun asanlıqla aradan qaldırıla biləcəyini aşkar etmiş və yerindəcə həllinə nail olmuşuq. Tutaq ki, yaxındakı artezi-andan köçkün məhəlləsinə su xətti, Qarabağ əlilləri üçün tikilmiş binadan ərazidəki məktəbə səki çəkmək, köhnə elektrik dirəyini yenisi ilə əvəz etmək üçün hansısa layihəyə, proqrama ehtiyac yox idi.

Bu görüşlərdə qaldırılan məsələlərin əksəriyyətini yoluna qoymaq mümkün imişsə, niyə adamlar buvaxtadək əziyyət çəkməli, hərəsi bir yerdə olan idarələrin qapısına ayaq döyməli, yaxud müxtəlif ünvanlara məktub yazıb şikayətlənməli imişlər? Ağdamlı məcburi köçkünlərin yığcam məskunlaşdıqları rayon və şəhərlərdə də səyyar qəbullar keçirməyə başlamışıq. Adamlar o qədər də çox şey istəmirlər – yalnız onları incidən məsələləri qaldırır, bir də mümkün olanları arzu edirlər. Əslində, vətəndaşların arzu-istəkləri ümumi inkişaf üçün bir təkanverici amildir.

Seçdiyimiz iş üsulunun köməyi ilə rayonun daha yüksək inkişafına mane olmuş təcrübəni birdəfəlik yox etməyi, dövlət köməyindən, yerli imkan və vəsaitlərdən daha çox fayda götürməyi nəzərdə tuturuq. Ağdamın vaxtilə bütün ölkədə təşəbbüskar bir bölgə olması imicini bərpa etməyi, hər sahədə öncüllüyünü tezliklə geri qaytarmağı qarşıya məqsəd qoymuşuq. Axı elə bir məsələ yoxdur ki, ölkəmizin indiki inkişafının yaratdığı imkanlarla, islahatların açdığı əlverişli yollarla, adamların qurub-yaratmaq həvəsinin yüksəkliyi ilə onu həll etmək mümkün olmasın.

Başçının dediklərinə əlavə edək ki, Bərdə–Ağdam magistralının Ağcabədi–Tərtər yolu ilə “Dördyol” adlanan kəsişməsindən rayonun girişinə qədər olan, təxminən, 10 kilometrlik hissəsi sovet zamanından bu yana dağılıb bərbad hala düşmüşdü. Bakıdan bu əraziyə, uzağı, 4 saata gələn bir avtomobil bu qısa məsafəni, az qala, bir saata güclə keçirdi. Hər tərəfə yeni yollar çəkilsə də, bu bəlalı keçidi təzələmək, sanki, vacib sayılmamışdı. Bəs yerli icra qurumları nə üçündür? Bu ara məsafə Ağdamın ərazisi deyilsə də, ondan bütünlüklə istifadə edən bu rayonun sakinləri idilər. Bu il sentyabrın əvvəlində bu zərurəti rayonun yeni rəhbəri “Azəravtoyol” qarşısanda qaldırdıq və bir ay keçməmiş rahat, keyfiyyətli yol çəkildi.



Rayonda olarkən bir daha yəqin etdik ki, son aylarda adamların dövlətin gücünə, Prezident İlham Əliyevin hər bir sahədə işlərin qaydada olması tələbinin onlara daha xoş gələcək gətirəcəyinə inamı olduqca yüksəlib. Görüşdüyümüz, əhval-ruhiyyəsini öyrəndiyimiz adamlar ümummilli lider Heydər Əliyevin Ağdama böyük ehtiramını, dar günlərdə rayona arxa-dayaq olmasını, davamlı diqqət və qayğısını hər yerdə böyük qədirbilənliklə yad edirdilər. Prezident İlham Əliyevin bu siyasəti davam etdirərək rayonun irili-xırdalı problemlərinin həllinə geniş imkan yaratmasını da ağdamlılar dərin minnətdarlıq hissilə qiymətləndirirlər.

Dövlət başçısının bu yaxınlarda rayona səfəri ilə bağlı Çəmənli kəndinin sakini, qocaman müəllim Bayram Aslanov bildirdi ki, bu səfərdə ölkə rəhbəri təzə yolların açılışını etməklə, musiqi beşiyi Ağdamda misilsiz bir Muğam evini istifadəyə verməklə, dünya şöhtətli Qarabağ atları üçün müasir bir kompleksi işə salmaqla göstərdi ki, Ağdamın nəinki insanları, hətta heyvanları da nə dərəcədə qədir-qiymətlidirlər. Ağdamda Qarabağ xalçalarının istehsalının qaydaya salınması isə qız-gəlinlərimizin unudulmaqda olan dədə-baba məşğuliyyətinin qorunub-saxlanmasını təmin etdi.

Bu sözlər rayon əhalisinin ürəyində yuva salan böyük razılığı, qədirbilənliyi çox tutarlı ifadə edir. Bu inamla, belə bir məmnunluqla, el-obada deyildiyi kimi, dağı dağ üstə qoymaq, yer üzünü cənnətə döndərmək olar. İndi rayonda ötən illərdən qalma problemlər sürətlə aradan qaldırılır, eyni zamanda, daha ciddi hədəflər müəyyən edilmişdir. Dövlət başçısı İlham Əliyevin bölgələrdə ənənəvi təsərrüfat sahələrini inkişaf etdirmək xətti tarixən məhsuldar kənd təsərrüfatı bölgəsi kimi formalaşmış Ağdamı da yeni inkişaf yoluna çıxarmışdır. Prezidentin bölgələrdə sənaye parkları yaradılmasına göstərdiyi diqqət nəticəsində isə Ağdamda da ilk uğurlu addımlıar atılıb. Rayon iqtisadisadiyyatını gücləndirməklə sosial-mədəni sahələri də inkişaf etdirmək bundan sonrakı fəaliyyətin ana xəttini təşkil edir.

Hazırada Quzanlı qəsəbəsində 360 şagird yerlik orta məktəbin tikintisi davam etdirilir. Qəsəbədə akademik Xudu Məmmədov adına küçəyə asfal-tbeton örtüyü salınmış, ərazidə əlavə yollara çınqıl tökülərək genişləndirilmişdir. İmamqulubəyli kəndində tibb məntəqəsinin tikintisinə başlanmışdır. Quzanlı – 100 evlər, Alıbəyli, Bənövşələr və Dördyol-1 qəsəbələrində yeni su xətləri çəkilmişdir. Baharlı-1 qəsəbəsində 50 nömrəlik telefon xətti istismara verilmişdir. Ergi qəsəbəsində poçt şöbəsi yaradılır. Əksər yaşayış məntəqələrində ictimai obyektlərdə səliqə-sahman yaradılır, abadlıq-quruculuq işləri davam etdirilir.

Builki mövsümdə ağdamlılar bol məhsul yetişdirmiş, ilin əvvəlindən əksər sahələrdə irəliləyişə nail olmuşlar. Rayonda ilin 9 ayı ərzində ümumi məhsul istehsalının həcmi 115,5 milyon manat olmuş, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artmışdır. Sənaye istehsalı 9 milyon 895 min manat, kənd təsərrüfatı məhsulunun həcmi 86 milyon 516 min manat, ticarət dövriyyəsi 11 milyon 388 min manat, informasiya və rabitə xidməti 283,5 min manat, nəqliyyat və anbar təsərrüfatı 945,9 min manat olmuşdur. 2018-ci ilin 9 ayı ərzində tikinti- quraşdırma işlərinin həcmi 6 milyon 510 min manata çatmışdır.

Rayonda 80,7 min ton tərəvəz, 5,9 min ton kartof, 15 min ton şəkər çuğunduru istehsal edilmişdir. Bu mövsümdə 17,1 ton barama istehsal olunaraq Şəki barama emalı avoduna verilmişdir. Hazırda pambıq yığımı davam etdirilir. Bugünə kimi 5 min tondan çox pambıq yığılmışdır. İri mal 41min, davar 104 başa çatmışdır. Ət istehsalı 3,2 min ton, süd 26,8 min ton, yumurta 103 min ədəd, yun 194,5 ton olmuşdur.

Ağdamlılar möhkəm inanırlar ki, Aprel döyüşlərinin açdığı yolla işğal altında inləyən torpaqlarımız tezliklə azad ediləcək, gördülmüş işlər rayonun əvvəlki hüdudlarında davam etdiriləcək. Prezident İlham Əliyevin rayon ictimaiyyəti ilə görüşü zamanı dediyi aşağıdakı sözlər bu baxımdan əhalidə yaxın sabahla bağlı böyük ümidlər doğurmuşdur: “Ağdam rayonu ərazisində 18 yeni köçkün qəsəbəsi salınıb. Mənə verilən son məlumata görə, Ağdam rayonunda hazırda 93 min insan yaşayır. Onların bir hissəsi hələ ki, öz doğma kəndlərində yaşamırlar, çünki kəndləri işğal altındadır, amma yenə də Ağdam rayonunun ərazisində yaşayırlar. Gün gələcək, onlar öz doğma kəndlərinə qayıdacaqlar, gün gələcək belə gözəl, möhtəşəm Muğam mərkəzi Ağdam şəhərində yaradılacaqdır”.

Qarşıya qoyulmuş hədəflərə çatmaq, ili uğurla başa vurmaq üçün bugünlərdə bütün sahələrdə işlər yüksək əzm və böyük inamla davam etdirilir. Uğur olsun, ağdamlılar!

***Tahir AYDINOĞLU,***
***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”***

**Ağdam – Bakı**